*1 noyabr Milli Məclisə seçkilər günüdür*

# Seçki məntəqəsi hazırdır

Qarşıdan gələn Milli Məclis seçkilərinə hazırlıq işləri davam edir. Məntəqələrin üzvləri öz işlərini Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə, Mərkəzi Seçki Komissiyasının təlimatlarına uyğun qurur, digər hüquqi-normativ aktların öyrənilməsi istiqamətində seçiciləri maarifləndirir və digər işlərin təşkil sahəsində tədbirlər həyata keçirirlər. Onlar qarşıdan gələn bu mühüm kampaniyanın uğurla başa vurulması üçün öz səylərini əsirgəmirlər. Bu mühüm kampaniyada 116 saylı Qəbələ seçki dairəsinin 39 saylı Kürd kənd seçki məntəqəsinin də seçkiyə hazırlıq işləri təqdirəlayiqdir. Seçki məntəqəsi kənddəki orta məktəbin binasında təşkil olunub. Seçki məntəqəsində 796 seçici qeydə alınmışdır. Məntəqənin sədri Həsənalı Baxşıyevdir. Onun rəhbərliyi ilə seçki məntəqəsində yaradılmış normal şərait yüksək səviyyədə seçki keçirilməsinə imkan verir. Belə ki, məntəqə gərəkli avadanlıq və inventarlarla təchiz olunmuşdur. Seçicilərin rahat səs verməsi üçün hər cür şərait yaradılıb, məntəqə təmir olunmuşdur. Məntəqə telefonla təmin olunmuş, nasaz elektrik xətləri dəyişdirilib yararlı vəziyyətə salınıb, seçki günü yaşlı seçicilərin məntəqəyə gətirilməsi üçün nəqliyyat vasitələrinin ayrılması nəzərdə tutulub. Burada seçki komissiya üzvlərinin sərbəst işləməsi üçün şərait yaxşı təşkil olunub. Seçicilərin fəallığını təmin etmək üçün məntəqə seçki komissiyanın üzvləri öhdələrinə düşən vəzifələri lazımınca yerinə yetirirlər. Məntəqə seçki komissiyasının sədri Həsənalı Baxşıyev seçki komissiyasının üzvləri ilə toplantılar keçirir, müəyyən məsələlərin müzakirəsi zamanı ortaya çıxan bəzi çatışmazlıqlar birgə səy nəticəsində aradan qaldırılır, aşkarlığa və şəffaflığa xüsusi diqqət yetirilir. Məntəqədə Azərbaycan Respublikasının Seçki Məcəlləsinin tələblərinə, Mərkəzi Seçki Komissiyasının təlimatlarına düzgün riayət edilir. Onu da qeyd etmək lazımdır ki, məntəqədə seçici siyahılarının dəqiqləşdirilməsində və burada texniki-təchizat işlərinin təşkilində yerli icra nümayəndəsi Eyyub Alıyevin xüsusi əməyi vardır. O, gündəlik olaraq məntəqədə seçicilərə normal səs vermə şəraitinin yaradılması, kəmkəsir işlərinin vaxtından əvvəl aradan qaldırılması ilə məşğul olur.

Məntəqədə əyani təşviqat işləri də diqqəti cəlb edir. Seçkilərlə əlaqədar məlumat lövhəsi, müxtəlif hüquqi-normativ aktlar məntəqənin görkəmli yerlərində yerləşdirilib. Məntəqə üzrə komissiya üzvlərindən növbətçilər təşkil olunub.

Bir sözlə, kənd seçiciləri qarşıdan gələn Milli Məclisə seçkilərdə yekdilliklə iştirak edərək, öz layiqli namizədinə səs verərək iradələrini nümayiş etdirəcəklər.

**Aslan CƏLİLOV.**

# «İnsan alveri bəşəri faciədir» mövzusunda tədbir keçirilmişdir

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan alverinə qarşı mübarizə Baş İdarəsinin, Təhsil nazirliyinin və İnsan alverinə qarşı Qeyri-Hökumət Təşkilatları Koalisiyasının təşkilatçılığı ilə Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində "İnsan alverinin mahiyyəti, formaları, doğurduğu təhlükələr və onunla mübarizə" mövzusunda tədbir keçirilmişdir.






Tədbirdə insan alverinə qarşı mübarizə məqsədilə respublikanın şəhər və rayonlarında adları qeyd olunan qurumların əməkdaşları tərəfindən peşə-ixtisas təhsili müəssisələrinin müəllim və şagirdləri arasında birgə maarifləndirmə işlərinin həyata keçirildiyi diqqətə çatdırılmışdır. Toplantıda Daxili İşlər Nazirliyinin İnsan alverinə qarşı mübarizə Baş İdarəsinin xüsusilə mühüm işlər üzrə baş əməliyyat müvəkkili polis polkovnik-leytenantı Fuad Əliyev, həmin idarənin əməliyyat müvəkkili polis baş leytenantı İlham Rəhimov, Qəbələ RİH-nin əməkdaşı Ramil Qəribov, Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin direktor müavini Malik Rəşidov iştirak etmişlər. Fuad Əliyev "İnsan alveri nədir?", "İnsan alverçiləri insanları (qurbanları) hansı yollarla tora salırlar", " İnsanları tora salmaq üçün hansı fəndlərdən istifadə edirlər?" mövzularında tədbir iştirakçılarına ətraflı məlumatlar vermişdir. O, insan alverçilərinin yalnız qadınları deyil, kişiləri və hətta uşaqları da qul vəziyyətinə saldıqlarını qeyd edərək, xarici ölkələrdə olarkən vətəndaşların nələri yadda saxlamalı olduğu barədə gəncləri maarifləndirmişdir. Tədbir iştirakçılarına İnsan alveri cinayətinin törədilmə formalarını əks etdirən bukletlər paylanılmış, İnsan alverinə qarşı mübarizə Baş İdarəsinin əlaqə telefonları, qaynar xətt telefon xidmətinin nömrələri verilmişdir.

Yekunda "İnsan alverindən özünü qoru" adlı videoçarx nümayiş etdirilmişdir.

**«Qəbələ».**
**Fotolar İ. Vəlizadənindir.**

# TƏQVİMDƏN SƏTİRLƏR

**5 oktyabr:** Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, bəstəkar **Xəyyam Mirzəzadə** anadan olmuşdur. Simfonik əsərlər, mahnılar yazmışdır.

**6 oktyabr:** Məşhur Norveç alimi, səyyah, etnoqraf və arxeoloq **Tur Heyerdal** (1914—2002) anadan olmuşdur. İki dəfə Azərbaycana, o cümlədən Qəbələyə gəlmişdir.

**7 oktyabr:** Görkəmli dövlət xadimi, Rusiya Federasiyasının Prezidenti **Vladimir Putin** 1952-ci ildə anadan olmuşdur. Müxtəlif vəzifələrdə işləmiş, 1999-cu ilin avqustunda baş nazir təyin olunmuş, beş ay sonra ölkə prezidenti seçilmişdir. İki seçki müddətində prezidentlikdən sonra baş nazir təyin olunmuş, növbəti seçkidə yenidən Rusiyanın prezidenti seçilmişdir.

Kvant mexanikasının banilərindən və atom bombası yaradanlardan biri, Nobel mükafatı laureatı, Danimarka fiziki **Nils Bor** (1885—1962) anadan olmuşdur.

**9 oktyabr:** Alman kimyaçısı, Nobel mükafat laureatı **Fişer Emil Perman** (1852—1919) anadan olub.

**10 oktyabr:** Filologiya elmləri doktoru **Aida Nəsir qızı İmanquliyeva** (1939—1992) Bakıda anadan olmuşdur. Orta məktəbi qızıl medalla bitirmiş, Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası şöbəsinə daxil olmuşdur. Tədqiqatçı kimi ərəb məhcər (mühacirət) ədəbiyyatını seçmişdir. 3 monoqrafiyanın, 70-dən çox elmi məqalənin müəllifi olan Aida xanım Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsiri problemini sistemli şəkildə araşdıran ilk azərbaycanlı qadın olmuşdur.

Əməkdar elm xadimi, görkəmli oftalmoloq **Ümnisə Musabəyova** (1902-1974) Qəbələdə dünyaya gəlmişdir. 1945-ci ildən ömrünün sonunadək Tibb Universitetində göz xəstəlikləri kafedrasının müdiri işləmişdir. Bir sıra beynəlxalq konfranslarda iştirak etmişdir. 4-cü çağırışda Azərbaycan SSR Ali Sovetinə, 5-ci çağırışda SSRİ Ali Sovetinə deputat seçilmişdir. Sovet Sülhü Müdafiə Komitəsinin, Sovet Qadınları Komitəsinin üzvü olmuşdur. Əsas elmi tədqiqqatları traxoma və qlaukoma xəstəliklərinə, görmə sinirinin patalogiyasına aiddir.

**12 oktyabr:** 1988-ci ildə Bakıda **"Muğam" teatrı** yaradılmışdır. Təşkilatçıları kinorejissor Arif Qazıyev və xalq artisti İslam Rzayev idi. A. Qazıyev indi həmin teatrın direktorudur.

**14 oktyabr:** Heykəltəraş, əməkdar incəsənət xadimi **Həyat Abdullayeva** 1912-ci ildə Dərbənddə dünyaya gəlmişdir. Heykəl-portretlər, monumentlər, kiçik formalı plastik əsərlər, heykəl-kompozisiyalar yaratmışdır.